Hekayə

# “Facebook”da macəra



Səxavət Tağlar
Əməkdar müəllim

- Mənə noutbuk lazımdır - Bahar müəllimə üzünü həyat yoldaşına tutdu.

- Noutbuku neyləyirsən?

- Dərs hazırlamağa lazımdı.

- Bu da təzə çıxdı?

- Ay Rəhman, İKT-nin tətbiqi ilə bağlı komputersiz yaxşı müəllim olmaq mümkün deyil.



Rəhman müəllimin iki qızı vardı, onları qolları arasına alıb:

? Ananızın ad gününə görün nə hədiyyə alacam? - dedi. Bahar müəllimənin isə sabaha dörd saat dərsi var idi. Ağır iş günü, ad gününə hazırlaşmağa yalnız günün ikinci yarsından sonra vaxt ayırmağa imkan yaradırdı.

Rəhman Baharı tələbəlik həyatında sevmişdi. Dörd illik birgə təhsil onları bir- birinə yaxşı tanıtdırmış, bu tanışlıq sonralar məhəbbətə çevrilmişdi. Məhəbbət dolu günlər ailə səadətinə gətirib çıxarmışdı. Universitetin dördüncü kursunda oxuyanda toyları oldu. Müəllimli, tələbəli hamı bu rəvacı alqışlayıb, ”Yaxşı gənclərdir, allah xoşbəxt eləsin!” dedilər. O günlərdən iyirmi il keçir.

Bahar ixtisası üzrə işləyir, coğrafiya müəlliməsidir. Rəhman isə beşaltı il müəllim işlədi, sonra dövlət qulluğu üzrə imtahan verib, Meşə Təsərrüfatında işə keçdi. Yaxşı ev-eşik qurublar.

? Özüm qədər inandığım insan.

? Gənclik illəri geri dönsə, təkrar ailə həyatı qurmaq imkanı yaransa, yenə də səni sevib-seçərdim.

Rəhmanın dilindən hər dəfə bu sözləri eşidəndə Bahar tələbəlik illərini, gəncliyini xatırlayır.

Onlar əvvəl-əvvəl dost idilər. Universitet kitabxanasının akt zalında diplom işi yazarkən hiss edib ki Rəhmanın münasibətində dəyişiklik var. Nəsə demək istəyir, ancaq çətinlik çəkir. Bahar o illərin ucuzlaşmış ”Mən səni sevirəm” sözlərini dostundan eşitməsin deyə, münasibəti bir qədər azaldıb. Sanki heç nə duymayıbmış. Tələbə yataqxanasında qızlar hamısı mühazirələri birgə oxuyardılar, Baharın xətti yaxşı olduğundan, uşaqların çoxu seminar məşğələlərinə Baharın mühazirə dəftərindən hazırlaşardı. Rəfiqəsi, otaq yoldaşı Rəna Baharın mühazirə dəftərini açarkən arasında bir məktuba rast gəlir. İmzasına baxmadan xətti tanıyır. Qrup yoldaşı Rəhman yazmışdı. İlk cümlədən hər şey ona aydın olur. Odur ki, məktubu oxumur və özünü rəfiqəsi Bahara çatdırır.

- Bacı, dəftərinin arasında məktubun gəlib.

- Nə məktub?

- Oxumamışam. Al, budur - deyib, məktubu ona uzadır. Bahar yataqxananın məhəccərli balkonuna keçib məktubu oxuyur: ”Məni bağışla. Ürəyimin hökmünə qalib gələ bilmədim. Bilirəm, oxumaq, təhsil almaq əvəzinə bu sevdaya düşənləri lənətləyirsən. İnan, mən lənətə layiq deyiləm! Sənə qarşı mənim kimi ikili münasibəti, dostumuz Əlinin də sevgisini duydum. Və bu duyğu içimi parçaladı, vücudumu susdurdu. Məktub yazmaq qərarına gəldim. Mən səni sevirəm! Xahiş edirəm münasibətini dəyişmə. İnan, heç kəsə deməmişəm. (Rəhman)”




İşin çoxluğundan ad günü axşama planlaşmışdı. Qohum-əqrabalar, Bahar müəllimənin iş yoldaşları, qonşular axşamüstünə bir-bir onlara gəlirdi. Hamıdan çox sevinən ailənin övladları Günellə Ramilə idi. Onların sevincinin içində bir nigaranlıq da duyulurdu

- Bahar müəllimə, ad günün mübarək! Həmişə ailənizdə olun, uşaqların xoşbəxt olsun! - deyə, məktəbin direktoru Sadıq müəllim təbrik etdi. Bahar müəllimənin ünvanına olduğu qədər gözəl fikirlər söyləndi. Rəhman Baharın yubiley tədbirində iştirak edən qonaqlara öz minnətdarlığını bildirdi. Təbrikə gəlincə isə:

- Məhəbbət dolu günlərimin əbədi şahidi, sevimli Günelin və Ramilənin anası! Adıtək bahar təravətli, bahar nəfəsli Bahar xanım! Tələbəlikdən, gənclik illərindən necə böyük məhəbbət və sevgi duymuşamsa, istəmişəmsə, bu gün də elədir. Təbrik edirəm! Peşə uğurları arzulayıram - fikirini söylədi. Hamı alqışladı. Qonaqları yola saldıqdan sonra Rəhman böyük qızı Günelə ”anana aldığım noutbuku gətir” dedi. Günel noutbuku atasının yanına gətirdi. O, həyat yoldaşı Baharın əlini sıxıb:

- Bu da sənin kompyuterin.

- Həmin gün ailədə ikiqat sevinc yaşandı. Uşaqlar da coğrafiya müəllimləri olan analarına alınmış hədiyyədən məmnun oldular.

Günlər keçdi. Bahar müəllimə noutbuku özüylə məktəbə apardı. Elə günlər oldu ki kompyuter coğrafiya kabinetində qaldı. Laborant Narın da müəllimənin kompyuterindən istifadə edirdi. O çox vaxt ”facebook”da olurdu. Özünə demədən Bahar müəllimənin adına bir ”facebook” profili yaradıb, onun şəkilini də profilə qoymuşdu. Bir neçə dəfə də onun adından yazmışdı. ”Fcebook”da onun ”inbox”suna mesajlar da gəlmişdi. Narın məktəb işçisi olsa da sevimli hobbisi sosial şəbəkələrdə yazışmaq idi. Məktəbdə kompyuterdə, işdən sonra isə telefonla yazışırdı. Bahar müəllimə bunun üstündə dəfələrlə onu məzəmmət etmişdi.

Rəhman işdə - Meşə Təsərrüfatı İdarəsində boş vaxtı olan kimi kompüterin qarşısına keçdi. ”facebook”a girib gələn mesajları oxudu, kimlərləsə yeni yazışmalar apardı. Dostluq təklif olunan insanlar içində həyat yoldaşı Bahar müəllimənin də adını və şəkilini görəndə başı fırlandı. Bir qədər özünə gələ bilmədi. İnanmadı. Buna baxmayaraq onun şəkilli və ünvanlı ”facebook” inbox”suna anonim yazdı.

- Salam.

Cavab aldı:

- Əleykəssalam

- Necəsən?

- Yaxşı. Siz?

- Mən də yaxşıyam.

Davam etdikcə Rəhmanın başının tükü biz-biz olurdu. Məəttəl qalmışdı. Təşviş içində bir də yazdı.

- Tanış olmaq olar?

- Niyə olmur?

- Nə gözəl şəkil qoymusunuz?

- Gözəl gününüz olsun.

- Məşğuliyyətiniz?

- Müəlliməyəm.

Rəhman əsəbdən əsirdi. Hiss etdi ki, ürək döyüntüsü yüksəlib, odur ki, müəlliməyə ”iki-üç dəqiqə işim çıxdı” yazdı. O isə ”noolar, gözləyirəm” yolladı. Bir stəkan su süzüb dərmanlarını atdı. İstədi ki, sakitləşsin, davam etməsin. Ancaq içində püskürən od-alov ona rahatlıq vermədi. Yenə kompüterin qarşısına keçdi.

- Müəllimə, ailəlisiniz?

- Xeyr, subayam.

- Niyə?

- Axtardığımı tapmamışam.

Rəhman kompyuterin arxasında əsməcəyə düşdü. İş vaxtı qurtarmışdı. Kompyuteri söndürüb, həyətə düşdü. Maşınına əyləşib, mühərriki işə saldı. Maşınını sürüb idarənin həyətindən çıxdı.

...Evə çatanda pörtmüşdü, sifəti və bütün bədəni əsəbdən səpmişdi. Onu ilk qarşılayan həyat yoldaşı Bahar müəllimə oldu.

- Noolub, a kişi?

- Heç nə, xəstələnmişəm.

- Bıy başıma xeyr! Sifətin, üz-gözün kükrəyib. Həkim çağıraq?

- Yox, lazım deyil.

- Onda çarpayına uzan, sakitləş.

Rəhman çarpayısına uzandı. Biriki saat keçdi. Rəhman durub yuyundu. Bir az ağzına yemək aldı. Nə edəcəyini, söhbəti necə açacağını bilmirdi. Bir az sakitlik yaranan kimi üzünü əks tərəfə çevirib, yoldaşına:

- Hə, noutbuku işlədə bilirsən?

- Ey, ay Rəhman, vaxt varmı.

- Gətir bura öyrədim.

- Məktəbdədir. Kabinetdə qoymuşam.

- Ay Bahar.

- Eşidirəm.

- Sənə ”facebook” profili yaradacam.

- Əşi, ətin tökülsün, nə ”facebook”, nə kompüter.

- Bil ki, ”facebook”da manyakzad olur ha!..

- Eyy, ay Rəhman, sən məni lap dəli yerinə qoyumsan. Xəstələndiyin yerdə bu nə sorğu-sualdır?

Bahar müəllimə mətbəxə keçdi. Düşüncələr beynini dəldi: ”Yəni bu kişi ad günümdə aldığı noutbuka görə darınır? Yoxsa məni laborant Narının yerinə qoyur?”

Rəhman isə ağılı üstünə gələndə beynində dolaşan qaranlıq mülahizələrə görə özü-özünə hesabat verirdi: ”Bahar ”İlin müəllimi” müsabiqəsinə ərizə verib. Şərtlərdən biri də budur ki, müəllim İKT-ni mükəmməl bilməlidir. Noutbuku da bu niyyətə aldırıb. İnana bilmirəm, o ”facebook”da gic-gic yazışmalarla məşğul olsun. Yazsa belə, o qədər axmaq deyil ki, profilinə öz şəkilini qoysun. ”Facebook”a girən kimi təklif olunan dostluqda onun şəkli gəlir. Nə bilim? Burda nəsə var”

Səhər açılmışdı. Bahar müəllimə uşaqları ilə məktəbə getməliydi. Yoldaşının xəstələnməyi onu çaş salmışdı. İstədi işə çıxmasın. Ancaq Rəhman buna razılıq vermədi. Odur ki, onun səhər yeməyini hazırlayıb, uşaqları ilə birlikdə məktəbə yollandı. Birinci saat dərs məşğələsini keçdi. İkinci saat dərsi olmadığından mobil telefonu ilə həyat yoldaşını yığdı.

- Rəhman, indi necəsən?

- Qalxmışam. Həkim çağırmışdım, yardım göstərdi. Narahat olma!

Bahar coğrafiya kabinetində sənədlərini qaydaya saldı. Üçüncü saat burada məşğələ keçəcəkdi. Laborant Narın isə həm məktəbin kompyuterində, həm də noutbukda, eyni vaxtda ikitərəfli yazışırdı. Onun bu hərəkətləri Bahar müəllimənin gərginliyini daha da artırırdı. Birdən üzünü müəlliməyə tutub:

- Hər şeyi öyrədəcəm sənə - dedi. Müəllimə Narına xəbərdarlıq etdi ki, öz işi ilə məşğul olsun. O birdən:

- Ay Bahar, bu feysbuk həyatdır. Kimlər yoxdu burda - deyə, gülümsədi. Və:

- Gəl bura! Bax, sənə də şəkilli ”facebook”profili yaratmışam. Elektron ünvanını və parolunu da yaz götür. Əvəzindən yazışmalar da aparmışam.

Bahar müəllimə ciddi görkəm aldı və uca səslə laborant Narının üstünə qışqırdı:

- Yığışdır özünü!

- Noolub e?

- Bura məktəbdir.

- Noolsun?

- Yaramaz. Bunun danışığına bax.

Narına söhbətin ciddiliyi yalnız indi çatdı. Bahar müəllimə adına yaradılmış ”facebook” profilinə girdi. Orada olan yazışmalardan xəcalət çəkdi. Halı pisləşdi. Məktəbin direktoru Sadıq müəllim əhvalatı bilən kimi Bahar müəllimənin dərs məşğələsinin yerini dəyişdi və direktoryanı müşavirə çağırdı. Qeyri-əxlaqı hərəkətlərinə görə laborant Narına töhmət verdi. Müşavirə iştirakçılarının yanında o, Bahar müəllimədən üzr istədi.

Məktəbdə tədris yekunlaşdı. Bahar müəllimə evə qayıtdı. Həm öz gərginliyi, həm də həyat yoldaşı Rəhmanın xəstəliyi onun bütün vücudunu silkələyirdi. Əhvalatı sevimli ömrün yoldaşına danışdı. Rəhman dik atıldı. Həmişə dediyi sözlər dilində yox, beynində dolandı: Özüm qədər inandığım insan...